**Azərbaycan Respublikası Prezidentinin 5 sentyabr 2012-ci il tarixli 2421 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın icrası ilə bağlı Vergilər Nazirliyi tərəfindən 2013-cü ildə görülən işlər**

| № | Tədbirin adı | Vergilər Nazirliyinin icraya məsul strukturları | İcra müddəti |
|---|---|---|---|
| | **1. İnformasiya əldə edilməsinin asanlaşdırılması** | | |
| 1.1 (1.1)* | Vergilər Nazirliyində informasiya azadlığı üzrə məsul şəxslərin müəyyən edilməsi, informasiya azadlığı ilə bağlı daxili icraat qaydalarının qəbul edilməsi və bu barədə ictimaiyyətin məlumatlandırılması | Vergilər Nazirliyində informasiya azadlığı üzrə məsul şəxs olaraq Nazirliyin Analitik informasiya şöbəsinin rəisi Mehti Mirsəlimov müəyyən edilmişdir. Hesabat ilində "Azərbaycan Respublikası Vergilər Nazirliyində İnformasiya azadlığı ilə bağlı daxili icraat Qaydaları" təsdiq edilmiş və nazirliyin rəsmi internet səhifəsində (www.taxes.gov.az) yerləşdirilmişdir. | 2012-2014 |
| 1.2 (1.2) | İnformasiya azadlığının təmin edilməsi məqsədi ilə məsul vergi xidməti əməkdaşları üçün treninqlərin keçirilməsi | İnformasiya azadlığının təmin edilməsi məqsədi ilə məsul vergi xidməti əməkdaşları üçün 2014-cü ildə treninqlərin keçirilməsi nəzərdə tutulmuşdur. | 2012-2014 |
| | **2. Dövlət orqanlarının öz fəaliyyəti barədə ictimaiyyətə müntəzəm məlumat verməsi** | | |
| 2.1 (2.1) | Vergi orqanlarının fəaliyyəti barədə məlumatların mütəmadi, yenilənmiş əsaslarla internet səhifələrində yerləşdirilməsi | Vergi orqanlarının fəaliyyətinin işıqlandırılması və geniş ictimaiyyətə çatdırılması məqsədilə Vergilər Nazirliyinin rəsmi internet səhifəsi vasitəsilə (taxes.gov.az) və KİV-lə yüksək səviyyəli əməkdaşlıq hesabat ilində davam etdirilmişdir. Belə ki, hesabat ilində KİV-ə 116 press-reliz verilmiş, vergi orqanlarının rəhbər vəzifəli şəxslərinin KİV üçün 51 müsahibəsi təşkil olunmuş, eyni zamanda internet saytlarında 2860 sayda material dərc edilmişdir.<br>Hesabat ilində Vergilər Nazirliyinin rəsmi internet səhifəsindən (taxes.gov.az) istifadələrin sayı 3456151 nəfər, "Sual-cavab" rubrikasına olan müraciətlərin sayı isə 2236 nəfər olmuşdur. Hesabat | 2012-2015 |

| № | Tədbirin adı | Vergilər Nazirliyinin icraya məsul strukturları | İcra müddəti |
|---|---|---|---|
| | | ilində saytın "Sual-cavab" rubrikasına işə qəbulla bağlı daxil olan 121 müraciət cavablandırılmışdır. Vergilər Nazirliyinin rəsmi internet səhifəsində (taxes.gov.az) olan "Qanunvericilik" bölməsində olan normativ-hüquqi sənədlərin yenilənməsi işləri mütəmadi olaraq davam etdirilir. | |
| 2.2 (2.2) | Vergi orqanlarının fəaliyyəti barədə illik məruzələrin tərtib edilməsi və internet səhifələrində açıqlanması | Vergilər Nazirliyinin fəaliyyəti ilə bağlı müvafiq illik məruzə hesabat ilinin yanvar-fevral aylarında "Vergilər" qəzetində dərc edilmişdir. Eyni zamanda, Vergilər Nazirliyinin əvvəlki ildə fəaliyyəti ilə bağlı yekun göstəricilərlə bağlı KİV üçün məlumatlar hazırlanmış və ictimaiyyətə açıqlanmışdır. Həmçinin Vergilər Nazirliyinin vəzifəli şəxslərinin iştirakı ilə KİV nümayəndələri üçün yekun mətbuat konfransı keçirilmişdir. | 2012-2015 |
| 2.3 (2.3) | Vergilər Nazirliyinin fəaliyyəti barədə mətbuat konfranslarının və ictimaiyyətlə birbaşa ünsiyyət formasında tədbirlərin keçirilməsi | Vergilər Nazirliyinin fəaliyyəti barədə mətbuat konfranslarının və ictimaiyyətlə birbaşa ünsiyyət formasında tədbirlərin keçirilməsi məqsədilə hesabat ilində Vergilər Nazirliyinin vəzifəli şəxslərinin 8 mətbuat konfransı və brifinqi, o cümlədən Nazirliyin rəhbərliyinin KİV nümayəndələri üçün 2 brifinqi keçirilmişdir. Eyni zamanda, vergi orqanlarının rəhbər vəzifəli şəxslərinin KİV üçün 51 müsahibəsi təşkil olunmuşdur.<br>Hesabat ilinin fevral ayında Nazirliyin təşkil etdiyi "Azərbaycanda vergi sistemi: reallıqlar və perspektivlər" mövzusunda II Vergi Forumun işinə dövlət orqanları, beynəlxalq təşkilatlar və banklarla yanaşı, qeyri-hökumət təşkilatlarının və sahibkarların ictimai birliklərinin nümayəndələri də cəlb edilmiş və diskussiyalarda iştirak etmişlər. Bundan əlavə, iyun ayında Azərbaycanda Amerika Ticarət Palatasının (AmCham) Vergilər Nazirliyi ilə birgə təşkil etdiyi "Vergi | 2012-2015 |

| № | Tədbirin adı | Vergilər Nazirliyinin icraya məsul strukturları | İcra müddəti |
|---|---|---|---|
| | | partnyorluğu" mövzusunda konfrans keçirilmişdir. Tədbirin işinə sahibkarların ictimai birliklərinin və qeyri-hökumət təşkilatlarının nümayəndələri cəlb edilmişdir.<br>Eyni zamanda, hesabat ilinin müxtəlif aylarında Vergilər Nazirliyinin təşkilatçılığı ilə keçirilən "Azərbaycanda əmək bazarı: qeyri-leqal məşğulluqla mübarizə", "Nağdsız ödənişlərin səviyyəsi şəffaflığın və hesabatlılığın mühüm şərtidir", "Heydər Əliyev və Azərbaycanın milli inkişaf modeli", "Elektron xidmətlər: çevik və səmərəli idarəçiliyin mütərəqqi modeli", «Vergi partnyorluğu: qarşılıqlı inam və etimad körpüsü» mövzularında dəyirmi masa tədbirlərinə qeyri-hökumət təşkilatlarının nümayəndələri dəvət edilmiş və diskussiyalarda fəal çıxış etmişlər. | |
| 2.4 (2.4) | Vergilər Nazirliyinin fəaliyyətini tənzimləyən qanunvericilik aktlarının anlaşılan sadə dildə yazılmış versiyasının, bələdçi qaydaların tərtib edilməsi və bu məlumatların vətəndaşlar arasında təşviq edilməsi | Hesabat ilində vergi qanunvericiliyi və inzibatçılığı sahəsində vergi ödəyiciləri üçün zəruri informasiyanı əks etdirən 14 adda kiçik həcmli buklet, kitabça və jurnal ümumilikdə 146800 nüsxədə (azərbaycan dilində 133900 və ingilis dilində 12900) nəşr etdirilmiş və onların vergi ödəyicilərinə çatdırılması üçün müvafiq tədbirlər görülmüşdür.<br>Bakı Elektrik Şəbəkə ASC-nin Bakı şəhəri üzrə borclu olan abonentlərə verilən bildirişlərinin arxa tərəflərində əmək müqavilələrinin bağlanmasının zəruriliyi barədə reklamlar yerləşdirilmişdir.<br>"Nəzarət-kassa aparatı və ciddi hesabat blanklarının tətbiqi xüsusiyyətləri" adlı yeni buklet hazırlanmış, 15 min nüsxədə nəşr etdirilmiş və onların vergi ödəyicilərinə çatdırılması üçün müvafiq tədbirlər görülmüşdür. | 2012-2015 |

| № | Tədbirin adı | Vergilər Nazirliyinin icraya məsul strukturları | İcra müddəti |
|---|---|---|---|
| | | Bundan əlavə, nağdsız ödənişlərin üstünlüklərini, o cümlədən ödəniş kartları, POS-terminallar və onlardan istifadə qaydalarını özündə əks etdirən buklet hazırlanmış, 30 min nüsxədə nəşr etdirilmiş və onların vergi ödəyicilərinə çatdırılması üçün müvafiq tədbirlər görülmüşdür. Respublika ərazisində nağdsız ödənişlərin üstünlüklərini təbliğ edən reklam şitləri yenilənmişdir. | |
| 2.5 (2.5) | Vergilər Nazirliyinin rəsmi internet saytında dövlət proqramlarının icrası barədə məlumatların yerləşdirilməsi üçün ayrıca bölmənin yaradılması | Vergilər Nazirliyinin rəsmi internet səhifəsində (taxes.gov.az) dövlət proqramlarının icrası barədə məlumatların yerləşdirilməsi məqsədilə "Qanunvericilik" bölməsində ayrıca "Dövlət proqramlarının icrası barədə məlumatlar" adlı alt bölmə yaradılmış və geniş ictimaiyyətin istifadəsinə verilmişdir. | 2012-2014 |
| **3. Dövlət orqanlarının fəaliyyətində ictimaiyyətin iştirakının genişləndirilməsi** | | | |
| 3.1 (4.1) | Vergilər Nazirliyi tərəfindən vergi qanunvericiliyi ilə bağlı qanun layihələrinin hazırlanması prosesinə vətəndaş cəmiyyəti nümayəndələrinin cəlb edilməsi, ictimai dinləmələrin keçirilməsi | Hesabat ilində elektron qaimə-fakturanın tətbiqinə başlanmasına vergi ödəyicilərinin münasibətinin öyrənilməsi məqsədilə Vergilər Nazirliyinin rəsmi internet səhifəsində (taxes.gov.az) və sosial şəbəkələrdəki rəsmi səhifələrində "Elektron qaimə-fakturanın tətbiqinə başlanmasına razısınızmı?" adlı sorğu yerləşdirilmiş, vergi ödəyicilərinin bununla bağlı fikirləri öyrənilmiş və müzakirələr təşkil edilmişdir. Bununla yanaşı, elektron qaimə-fakturanın forması, tətbiqi, uçotu və istifadəsi Qaydalarının layihəsi hazırlanmış və Nazirlər Kabinetinə göndərilmişdir. | 2012-2015 |

| № | Tədbirin adı | Vergilər Nazirliyinin icraya məsul strukturları | İcra müddəti |
|---|---|---|---|
| 3.2 (4.2) | Vergilər Nazirliyi tərəfindən vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlığın təkmilləşdirilməsi üçün müvafiq şuraların və ya əməkdaşlıq şəbəkələrinin yaradılması | Vergilər Nazirliyi ilə vətəndaş cəmiyyəti institutları arasında əməkdaşlığın təkmilləşdirilməsi məqsədilə Nazirlikdə İctimai Şuranın yaradılması istiqamətində tədbirlər hesabat ilində davam etdirilmişdir. Belə ki, 2013-cü ildə Vergi Auditi Departamentində və Bakı şəhərində yeni istifadəyə verilmiş Vergi ödəyicilərinə xidmət Mərkəzində keçirilmiş "Açıq qapı günü" tədbirlərinə, Nazirliyin keçirdiyi "Kompüter əsaslı audit sistemi sahəsində AR Vergilər Nazirliyinə dəstəyin göstərilməsi" Tvinninq layihəsinin başa çatdırılmasına həsr olunmuş təqdimat mərasiminə, Avropadaxili Vergi Administrasiyaları Təşkilatının Baş Əlaqələndirici Şəxslərinin 19-cu Forumuna, "ASAN imza-mobil hökumətin açarıdır" mövzusunda konfransa, Amerika Ticarət Palatasının Vergilər Nazirliyi ilə birgə təşkil etdiyi "Vergi partnyorluğu" mövzusunda konfransa, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının "Çoxmilli müəssisələrin auditi" mövzusunda seminara vətəndaş cəmiyyəti institutları və media nümayəndələri cəlb edilmişdirlər.<br>Bununla yanaşı, Nazirliyin mətbu orqanı olan "Vergilər" qəzetinin təşkilatçılığı ilə hesabat ilinin yanvar ayında "Azərbaycanda əmək bazarı: qeyri-leqal məşğulluqla mübarizə", mart ayında "Nağdsız ödənişlərin səviyyəsi şəffaflığın və hesabatlılığın mühüm şərtidir", aprel ayında "Heydər Əliyev və Azərbaycanın milli inkişaf modeli", sentyabr ayında "Elektron xidmətlər: çevik və səmərəli idarəçiliyin mütərəqqi modeli" və dekabr ayında "Vergi partnyorluğu: qarşılıqlı inam və etimad körpüsü" mövzusunda dəyirmi masalar keçirilmiş və bu tədbirlərə media və qeyri-hökumət təşkilatlarının nümayəndələri dəvət edilmişdirlər. | 2012-2013 |

| № | Tədbirin adı | Vergilər Nazirliyinin icraya məsul strukturları | İcra müddəti |
|---|---|---|---|
| 3.2.1 (4.2) | Vergi ödəyicilərinə göstərilən xidmətlər – məlumatlandırma, maarifləndirmə və təbliğat işində sahibkarların ictimai təşkilatlarının rolunun artırılması istiqamətində əməkdaşlıq şəbəkəsinin yaradılması | Vergi ödəyicilərinə göstərilən xidmətlər – məlumatlandırma, maarifləndirmə və təbliğat işində sahibkarların ictimai təşkilatlarının rolunun artırılması istiqamətində əməkdaşlıq şəbəkəsinin yaradılması ilə bağlı işlər hesabat ilində də davam etdirilmiş, ötən müddət ərzində vergi orqanları tərəfindən sahibkarlarla 840 görüş keçirilmiş, 12588 vergi ödəyicisinə səyyar məlumatlandırma xidməti göstərilmişdir. | |
| 3.2.2 (4.2) | “Vergi Dostları” şəbəkəsinin genişləndirilməsi sahəsində aidiyyəti işlərin görülməsi | Vergi sahəsində məlumatlandırma, maarifləndirmə və təbliğat işinin genişləndirilməsi, “vergi” məfhumunun ölkəmizin bütün ərazisinə, xüsusilə kənd və qəsəbələrə, hər bir ailəyə çatdırılması, o cümlədən bu sahəyə ictimaiyyətin geniş təbəqələrinin cəlb edilməsi məqsədilə Vergilər Nazirliyi tərəfindən həyata keçirilən “Vergi Dostları” layihəsi üzrə respublikanın paytaxtdan kənar inzibati rayonlarında yerləşən ümumtəhsil məktəblərindən ümumilikdə 1405 müəllim seçilərək onlara treninqlər keçirilmiş, “Vergi dostu” olması barədə sertifikat və kompüterlər təqdim olunmuşdur.<br>Eyni zamanda, “Vergi Dostları” layihəsinə qoşulmuş müəllimlərin əlaqələndirilməsi, onların gördükləri işlər barədə məlumat vermələri məqsədilə “Facebook” sosial şəbəkəsində “Vergi Dostları” qrupu yaradılmışdır. | |
| 3.3 (4.3) | İctimai maraq kəsb edən qərarların qəbul edilməsi prosesində ictimaiyyətin iştirakını genişləndirmək vasitəsi kimi internet portallarından istifadə edilməsi (vətəndaşların təklif və rəylərinin qəbul edilməsi, ictimai müzakirələrin təşkil edilməsi) | İctimai maraq kəsb edən qərarların qəbul edilməsi prosesində ictimaiyyətin iştirakını genişləndirmək vasitəsi kimi internet portallarından istifadə edilməsi ilə bağlı işlər hesabat ilində də davam etdirilmiş, ötən müddət ərzində vergi ödəyicilərinə xidmət strukturlarında və vergi ödəyicilərinə xidmət mərkəzlərində ümumilikdə 278295 vergi ödəyicisi qəbul edilmiş və onlara 599056 sayda müxtəlif növ vergi xidmətləri göstərilmişdir. 195 Telefon məlumat xidməti | 2012-2015 |

| № | Tədbirin adı | Vergilər Nazirliyinin icraya məsul strukturları | İcra müddəti |
|---|---|---|---|
| | | tərəfindən vergi ödəyiciləri və vətəndaşların 238666 müraciəti, o cümlədən avtomatik rejimdə 64576 müraciət, birbaşa əlaqə zamanı isə müfəttiş-operatorlar tərəfindən 174090 müraciət cavablandırılmışdır. 2013-ci ilin müvafiq dövründə 584387 vergi ödəyicisi mesaj xidməti vasitəsilə məlumatlandırılmışdır. Bununla yanaşı, Vergilər Nazirliyinin internet səhifəsinə (www.taxes.gov.az) 3,5 milyon nəfər şəxs daxil olmuşdur. | |
| 3.3.1 (4.3) | İctimai maraq kəsb edən qərarların qəbul edilməsi prosesində ictimaiyyətin iştirakını genişləndirmək vasitəsi kimi Vergilər Nazirliyinin rəsmi internet səhifəsindən, eləcə də nazirliyin facebook və digər sosial şəbəkələrdəki səhifələrindən istifadə edilməsi (tanınmış ictimai xadimlərdən müsahibələrin götürülməsi, ictimai müzakirələrin təşkil edilməsi, vətəndaşların təklif və rəylərinin qəbul edilməsi, interaktiv sual-cavab bölmələrinin yaradılması və s.) | Vergilər Nazirliyinin rəsmi internet səhifəsində (www.taxes.gov.az) “Asan İmza” və “Əmək müqaviləsi ilə böyüyən imkanlar” bölmələri və “Bir Pəncərə” bölməsində “E-qeydiyyat” alt bölməsi yaradılmış, “Vergi ödəyicilərinə xidmət mərkəzləri” bölməsi yenilənmişdir. Mərkəzi dövlət qurumlarının onlayn şəffaflığı mövzusunda Media Hüquq İnstitutu tərəfindən hesabat ilində aparılmış monitorinqin nəticələrinə görə Vergilər Nazirliyinin rəsmi internet səhifəsi 1-ci yerə layiq görülmüşdür.<br>Hesabat ilində “Facebook” və “Twitter” sosial şəbəkələrindəki Vergilər Nazirliyinin rəsmi səhifələrində, “Youtube” video-hostinq serverində və “video.az” internet səhifəsində vergi orqanlarının fəaliyyəti barədə ictimaiyyətin məlumatlandırılması mütəmadi olaraq həyata keçirilmişdir. Eyni zamanda, vergi qanunvericiliyi və inzibatçılığı barədə vergi ödəyicilərinin məlumatlandırılması məqsədilə Nazirliyin “Facebook” sosial şəbəkəsindəki səhifəsində yeni “Online müfəttiş” layihəsinə start verilmişdir. Vergi sahəsində aktual olan mövzular haqda video-müsahibələr də hazırlandıqca Nazirliyin “Facebook” sosial şəbəkəsindəki səhifəsində yerləşdirilir. Bundan əlavə, Nazirliyin “Facebook” sosial şəbəkəsindəki səhifəsində "FACE-Vizit" | |

| № | Tədbirin adı | Vergilər Nazirliyinin icraya məsul strukturları | İcra müddəti |
|---|---|---|---|
| | | layihəsinin həyata keçirilməsi davam edir. Nazirliyin "Vergi Dostları" layihəsinə qoşulmuş müəllimlərin əlaqələndirilməsi, eləcə də onların gördükləri işlər barədə məlumat vermələri məqsədilə "Facebook" sosial şəbəkəsində eyni adlı qrup yaradılmışdır. Bundan əlavə, vergi ödəyicilərinə xidmət strukturları tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin müəyyən edilməsi məqsədilə İnternet vergi idarəsində hər rüb vergi ödəyiciləri arasında sorğu keçirilir. | |
| 3.4 (4.4) | Vergilər Nazirliyi tərəfindən "Açıq qapı" vətəndaş forumlarının keçirilməsi | Vergilər Nazirliyi tərəfindən "Açıq qapı" vətəndaş forumlarının keçirilməsi ilə bağlı işlər hesabat ilində də davam etdirilmiş, ötən müddət ərzində Vergilər Nazirliyi tərəfindən 2 belə tədbir keçirilmişdir. Hesabat ilinin mart ayında KİV nümayəndələrini vergi hüquqpozmaları ilə mübarizə sahəsində aparılan işlərlə tanış etmək məqsədi ilə Vergilər Nazirliyi yanında Vergi Auditi Departametində "Açıq qapı" günü keçirilmişdir. Noyabr ayında isə KİV nümayəndələrini vergi xidmətinin əsas fəaliyyət istiqamətlərindən biri olan vergi ödəyicilərinə xidmət sahəsində aparılan işlər, bu xidmətlərin səviyyəsinin artırılması üçün görülən tədbirlərlə tanış etmək məqsədi ilə Bakı şəhərində yeni istifadəyə verilmiş Vergi ödəyicilərinə xidmət Mərkəzində "Açıq qapı" günü keçirilmişdir. Hər 2 tədbir TV-lərdə, dövrü mətbuatda və elektron KİV-də geniş işıqlandırılmışdır. | 2012-2015 |
| **4. Elektron xidmətlərin təkmilləşdirilməsi** | | | |
| 4.1 (5.2) | Vergilər Nazirliyinin səlahiyyətlərinə uyğun olaraq həyata keçirilən elektron xidmətlər barədə ildə bir dəfədən az olmayaraq ictimai təqdimatların keçirilməsi | Hesabat ilinin may ayında İran İslam Respublikasının, iyun ayında Moldovanın və sentyabr ayında Qazaxıstan Respublikasının Milli Vergi Administrasiyalarının rəhbərlərinə Azərbaycanda göstərilən elektron vergi xidmətləri ilə əlaqədar təqdimatlar nümayiş etdirilmişdir.<br>Bundan əlavə, Vergilər Nazirliyinin göstəridiyi elektron xidmətlər | 2013-2015 |

| № | Tədbirin adı | Vergilər Nazirliyinin icraya məsul strukturları | İcra müddəti |
|---|---|---|---|
| | | barədə daha 2 ictimai təqdimat keçirilmişdir. Bunlardan biri Vergilər Nazirliyi, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi və AR Prezidenti yanında Vətəndaşlara Xidmət üzrə Dövlət Agentliyi (ASAN Xidmət) ilə birgə "ASAN imza-mobil hökumətin açarıdır" mövzusunda keçirilmiş konfrans olmuşdur. Vergilər Nazirliyinin həyata keçirdiyi yeni layihənin – Nazirliyin elektron imza üzrə Sertifikat Xidmətləri Mərkəzinin təqdimatına və mobil imzanın istifadəyə verilməsinə həsr olunmuş konfrans KİV-də geniş işıqlandırılmışdır. İkinci təqdimat «Kompüter əsaslı audit sistemi sahəsində AR Vergilər Nazirliyinə dəstəyin göstərilməsi» Tvinninq layihəsinin başa çatdırılmasına həsr olunmuşdur. Azərbaycanın vergi xidmətində yeni istiqamət – elektron auditin həyata keçirilməsi ilə bağlı olan bu təqdimat da KİV-də geniş işıqlandırılmışdır. | |
| 4.2 (5.4) | Rüsumların, vergilərin, inzibati cərimələrin və digər ödənişlərin elektron qaydada ödənilməsinin təkmilləşdirilməsi | Rüsumların, vergilərin, inzibati cərimələrin və digər ödənişlərin elektron qaydada ödənilməsinin təkmilləşdirilməsi üçün müvafiq tədbirlər görülməsi ilə bağlı işlər hesabat ilində də davam etdirilmiş, ötən müddət ərzində dövlət rüsumu üzrə ödənişlərin elektron qaydada aparılması məqsədilə AR Maliyyə Nazirliyi və AR Mərkəzi Bankın birgə həyata keçirdikləri tədbirlər nəticəsində AR Ədliyyə Nazirliyinin də "Hökumət Ödəniş Portalı"na inteqrasiya olunması istiqamətində işlər görülmüşdür. Bu məqsədlə Ədliyyə Nazirliyi tərəfindən toplanan rüsumların büdcə təsnifatı kodları və rüsum yığan təşkilatlarının xəzinə rekvizitləri barədə müvafiq siyahılar müəyyənləşdirilmiş və həmin Nazirliyin informasiya sisteminin "Hökumət Ödəniş Portalı"na qoşulması ilə bağlı bütün texniki və digər məsələlər müzakirə edilmişdir. | 2013-2014 |

| № | Tədbirin adı | Vergilər Nazirliyinin icraya məsul strukturları | İcra müddəti |
|---|---|---|---|
| | | Hesabat ilində vergi ödəyicilərinin ƏDV depozit hesabı vasitəsilə ƏDV faizləri üzrə borcunun yarandığı təqdirdə məbləğin sub-uçot hesabından avtomatik büdcəyə silinməsi məqsədilə vergi ödəyiciləri üçün İnternet Vergi İdarəsində müvafiq imkan yaradılmış və 21.10.2013-cü il tarixdən istifadəyə verilmişdir.<br>AR Prezidentinin «Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında» fərmanından irəli gələn vəzifələr ilə bağlı Vergilər Nazirliyi tərəfindən vətəndaş cəmiyyətinə, biznes strukturlarına göstərilən elektron xidmətlərin çeşidinin və həcminin artırılması sahəsində bir sıra zəruri tədbirlər həyata keçirilmiş, Nazirlik ilə Mərkəzi Bankın birgə həyata keçirdikləri tədbirlər nəticəsində vergi və rüsumların elektron ödəniş sistemi yaradılmışdır. Bu elektron xidmətdən istifadə etməklə hesabat ilinin ötən müddəti ərzində dövlət büdcəsinə 754163 sayda ödəniş əsasında 154, 4 milyon manat vəsait daxil olmuşdur.<br>Eyni zamanda POS-terminalların tətbiqinin genişləndirilməsinə nəzarətin təşkili ilə bağlı, o cümlədən POS-terminal ilə əlaqədar bildirişlərin hazırlanması və göndərilməsi ilə bağlı Nazirliyin müvafiq proqram təminatında təkmilləşdirmə işlərinin görülməsi təmin edilmişdir.<br>Bundan əlavə, informasiya-kommunikasiya texnologiyalarının tətbiqi sahəsinin genişləndirilməsi, göstərilən elektron xidmətlərin təkmilləşdirilməsi, eləcə də “Asan İmza Sim-kartı” və “Rəqəmsal ID kartı” üzrə dövlət orqanlarına, hüquqi və fiziki şəxslərə sertifikat xidmətlərinin göstərilməsi ilə bağlı hesabat ilinin may ayından etibarən Vergilər Nazirliyinin Asan Sertifikat Xidmətləri Mərkəzi fəaliyyətə | |

| № | Tədbirin adı | Vergilər Nazirliyinin icraya məsul strukturları | İcra müddəti |
|---|---|---|---|
| | | başlamışdır. ƏDV ödəyiciləri mobil telefon vasitəsilə imza etməklə elektron hesab faktura göndərmək, ƏDV üzrə elektron ödənişlərin və əvəzləşmələrin aparılması imkanını əldə etmişlər. Vətəndaşların mobil imza vasitəsilə digər dövlət qurumlarının da xidmətlərindən istifadə edə bilmələri üçün müvafiq tədbirlər görülür.<br>Hesabat dövründə banklar və digər kredit təşkilatları ilə vergi orqanları arasında inteqrasiyanın genişləndirilməsi işləri davam etdirilmişdir. İl ərzində “Naxçıvanbank”, “Gəncəbank”, “Günaybank” ASC-ləri və “Pakistan Milli Bankı”nın Bakı filialı ilə vergi orqanları arasında hesabların açılması üçün şəhadətnamə-dublikatların və hesablanmış vergilər üzrə borcların və faizlərin, tətbiq edilmiş maliyyə sanksiyalarının dövlət büdcəsinə alınması üçün sərəncamların elektron mübadiləsinə başlanılmış və bununla da, respublikamızda fəaliyyət göstərən kommersiya banklarından 41-nin elektron mübadiləyə qoşulması təmin olunmuşdur. | |
| 4.3 (5.5) | Regionlarda əhalinin elektron xidmətlərdən istifadə imkanlarının artırılması üzrə tədbirlərin həyata keçirilməsi | “Mərkəzi icra hakimiyyəti orqanları tərəfindən konkret sahələr üzrə elektron xidmətlər göstərilməsi Qaydaları”nın və “Elektron xidmət növlərinin Siyahısı”nın təsdiq edilməsi haqqında” AR Nazirlər Kabinetinin 24.11.2011-ci il tarixli 191 nömrəli qərarında dəyişikliklər edilməsi barədə” Nazirlər Kabinetinin 17.10.2012-ci il tarixli 235 nömrəli Qərarı ilə “Elektron xidmət növlərinin Siyahısı” yeni redaksiyada təsdiq edilərək Vergilər Nazirliyinə 57 ədəd elektron xidmət növünün göstərilməsi həvalə edilmişdir.<br>Hazırda vergi ödəyicilərinə xidmət mərkəzləri Vergilər Nazirliyinin 11.07.2013-cü il tarixli əmri ilə təsdiq edilmiş “Vergi ödəyicilərinə xidmətlərin vahid standartları”na uyğun olaraq 50 növ xidmət göstərir. | 2013-2014 |

| № | Tədbirin adı | Vergilər Nazirliyinin icraya məsul strukturları | İcra müddəti |
|---|---|---|---|
| | | Eyni zamanda, hesabat ilinin noyabr ayından etibarən vergi ödəyicilərinə xidmət mərkəzləri Nazirliyin 20.09.2013-cü il tarixli əmri təsdiq edilmiş "Vergi ödəyicilərinə xidmət mərkəzində vergi ödəyicilərinin qəbulu və xidmətin təşkili Qaydaları"na uyğun fəaliyyət göstərir. | |
| **5. Maliyyə nəzarətini həyata keçirən orqanların fəaliyyətində şəffaflığın artırılması** | | | |
| 5.1 (6.1) | Dövlət maliyyə nəzarətini həyata keçirən orqanların səlahiyyətlərinin dəqiqləşdirilməsi və maliyyə nəzarəti üzrə daha təkmil hüquqi baza təmin etmək üçün maliyyə nəzarəti haqqında qanun layihəsinin hazırlanmasında iştirak edilməsi, aidiyyəti mərkəzi icra hakimiyyəti orqanlarından daxil olan qanun layihələrinə baxılması və müvafiq rəyin verilməsi | Dövlət maliyyə nəzarətini həyata keçirən orqanların səlahiyyətlərinin dəqiqləşdirilməsi və maliyyə nəzarəti üzrə daha təkmil hüquqi baza təmin etmək üçün maliyyə nəzarəti haqqında qanun layihəsinin hazırlanmasında iştirak edilməsi, aidiyyəti mərkəzi icra hakimiyyəti orqanlarından daxil olan qanun layihələrinə baxılması və müvafiq rəyin verilməsi ilə bağlı tədbirin icrası Vergilər Nazirliyi ilə yanaşı, Nazirlər Kabineti, Hesablama Palatası və Maliyyə Nazirliyinə də həvalə edilmişdir. Hesabat ilində həmin tədbirin əsas icraçıları tərəfindən hər hansı sənəd və ya təklif layihəsi Vergilər Nazirliyinə daxil olmamışdır.<br>Eyni zamanda, Nazirlər Kabinetinin 28.10.2013-cü il tarixli 17/4285-14 nömrəli dərkanarı ilə Vergilər Nazirliyinə daxil olmuş AR Auditorlar Palatasının təkliflərinə Nazirlikdə baxılmışdır. Vergilər Nazirliyinin 06.11.2013-cü il tarixli 1317030012294600 nömrəli cavab məktubunda bildirilmişdir ki, qeyd olunan tədbirin icrası məqsədilə aidiyyəti orqanlardan "Normativ hüquqi aktlar haqqında" AR-nın Konstitusiya Qanununun tələblərinə uyğun olaraq maliyyə nəzarəti haqqında qanun layihəsi təqdim edildikdə Auditorlar Palatasının təkliflərinə baxılması məqsədəuyğundur. | 2013-2014 |

| № | Tədbirin adı | Vergilər Nazirliyinin icraya məsul strukturları | İcra müddəti |
|---|---|---|---|
| 5.2 (6.2) | Vergi nəzarəti tədbirləri barədə təhlillərin və statistik məlumatların mütəmadi olaraq KİV-də dərcinin təmin olunması | Hesabat ilində vergi hüquqpozmalarına qarşı mübarizə tədbirləri, borclu vergi ödəyicilərinin əmlakının siyahıya alınması, operativ vergi nəzarəti tədbirləri barədə müxtəlif hesabat dövrlərində mətbu və media qurumlarında press-relizlər verilmiş, Nazirliyin bilavasitə vergi nəzarətini həyata keçirən strukturlarının rəhbərləri ilə müsahibələr təşkil edilməklə, KİV-ə göndərilmiş, bu sahədə həyata keçirilən tədbirlər TV-lərdə, dövrü mətbuatda və elektron KİV-də geniş işıqlandırılmışdır. | 2013-2015 |
| 5.3 (6.3) | Maliyyə nəzarətində informasiya texnologiyalarının tətbiqi və elektron nəzarət ("e-nəzarət") sisteminin yaradılmasında iştirak edilməsi və bununla bağlı daxil olan sənədlərə (təkliflərə) münasibət bildirilməsi | Hesabat ilində maliyyə nəzarətində informasiya texnologiyalarının tətbiqi və elektron nəzarət ("e-nəzarət") sisteminin yaradılmasında iştirak edilməsi və bununla bağlı Vergilər Nazirliyinə hər hansı bir sənəd və ya təklif daxil olmamışdır. | 2013-2014 |
| 5.4 (6.4) | Maliyyə nəzarəti orqanlarının qarşılıqlı fəaliyyətinin təmin edilməsi, onlar arasında vahid elektron informasiya bazasının yaradılması, informasiya mübadiləsinin təşkili işlərində müvafiq orqanlar tərəfindən təklif daxil olduqda Vergilər Nazirliyinin mütəxəssislərinin iştirakının təmin edilməsi | Hesabat ilində maliyyə nəzarəti orqanlarının qarşılıqlı fəaliyyətinin təmin edilməsi, onlar arasında vahid elektron informasiya bazasının yaradılması, informasiya mübadiləsinin təşkili işlərində müvafiq orqanlar tərəfindən Vergilər Nazirliyinə hər bir sənəd və ya təklif daxil olmamışdır. | 2013-2014 |
| **6. Vergi nəzarəti və yoxlamaları prosesində şəffaflığın artırılması** | | | |
| 6.1 (7.1) | Vergi ödəyicilərinin vergi qanunvericiliyi ilə bağlı informasiya təminatının yaxşılaşdırılması məqsədilə Vergilər Nazirliyinin rəsmi internet | Hesabat ilində vergi ödəyicilərinə xidmət strukturlarında və vergi ödəyicilərinə xidmət mərkəzlərində qəbul edilmiş vergi ödəyicilərinə müxtəlif növ vergi xidmətləri göstərilmiş, eyni zamanda 195 Telefon məlumat xidməti tərəfindən vergi ödəyiciləri və vətəndaşların | 2012-2014 |

| № | Tədbirin adı | Vergilər Nazirliyinin icraya məsul strukturları | İcra müddəti |
|---|---|---|---|
| | səhifəsi, vergi ödəyicilərinə xidmət strukturları, vergi ödəyicilərinə xidmət mərkəzləri vaitəsilə onlara zəruri məlumatların çatdırılması, hüquq və vəzifələrinin izah edilməsi, buklet və kitabçaların paylanması və vergi ödəyiciləri arasında təbliğat işinin təkmilləşdirilməsi | muraciətləri birbaşa əlaqə zamanı isə müfəttiş-operatorlar tərəfindən və avtomatik rejimdə cavablandırılmışdır. 2013-cü ildə mesaj xidməti vasitəsilə də məlumatlandırma işləri aparılmışdır. Bununla yanaşı, Vergilər Nazirliyinin internet səhifəsinə (www.taxes.gov.az) 3,5 milyon nəfər şəxs daxil olmuşdur. Qeyd olunan dövr ərzində internet səhifəsinin "Sual-cavab" bölməsinə daxil olmuş 2236 müraciətin cavablandırılması təmin edilmişdir.<br>Hesabat ilində vergi qanunvericiliyi və inzibatçılığı sahəsində vergi ödəyiciləri üçün zəruri informasiyanı əks etdirən, azərbaycan və ingilis dillərində 14 adda kiçik həcmli buklet, kitabça və jurnal nəşr etdirilmiş və onların vergi ödəyicilərinə çatdırılması üçün müvafiq tədbirlər görülmüşdür. Eyni zamanda, Bakı şəhərində fəaliyyət göstərən vergi borclu olan abonentlərə Bakı Elektrik Şəbəkə ASC-nin verdiyi bildirişlərin arxa tərəflərində əmək müqaviləsinin bağlanmasının zəruriliyi barədə reklamlar yerləşdirilmişdir. Respublika ərazisində nağdsız ödənişlərin üstünlüklərini təbliğ edən xüsusi reklam şitləri yenilənmişdir. | |
| 6.2 (7.2) | Vergi orqanlarının fəaliyyətinin Beynəlxalq Valyuta Fondunun Vergi şəffaflığı üzrə yaxşı praktika haqqında kodeksinə uyğunlaşdırılması sahəsində tədbirlər görülməsi | Vergi orqanlarının fəaliyyətinin Beynəlxalq Valyuta Fondunun "Vergi şəffaflığı üzrə yaxşı praktika haqqında kodeksi"nə uyğunlaşdırılması sahəsində tədbirlər görülməsi ilə bağlı işlər hesabat ilində də davam etdirilmişdir. Belə ki, ötən müddət ərzində Vergilər Nazirliyi tərəfindən aparılan monitorinqin nəticələri, həmçinin adı çəkilən Kodeksin müddəalarının vergi orqanlarının fəaliyyətində və aidiyyəti normativ-hüquqi aktlarda nəzərə alınması və Nazirliyin səlahiyyətlərinə aid olan müddəaların yerinə yetirilməsi barədə məlumat 6 noyabr 2008-ci il tarixində Nazirlər Kabinetinə təqdim edilmişdir. | 2012-2013 |

| № | Tədbirin adı | Vergilər Nazirliyinin icraya məsul strukturları | İcra müddəti |
|---|---|---|---|
| | | Bununla yanaşı, "Vergi şəffaflığı üzrə yaxşı praktika haqqında kodeksi"nin təkmilləşdirilməsi üzərində Beynəlxalq Valyuta Fondu tərəfindən işlərin aparılması, eyni zamanda hesabat ilində fond tərəfindən bu Kodeksə əlavə və dəyişikliklər ilə bağlı layihəsinın hazırlanması barədə ictimaiyyətə açıqlanma verilmişdir. Layihə ilə bağlı verilən rəy və təkliflərə əsasən sənədin yekun variantı hazırlanmış və təsdiq üçün Beynəlxalq Valyuta Fondunun İcraiyyə Şurasına təqdim edilmişdir. Layihə təsdiq edildikdən sonra onun dərc edilməsi nəzərdə tutulur. | |
| 6.3 (7.3) | Vergilərin və digər icbari ödənişlərin elektron qaydada ödənilməsinin təkmilləşdirilməsi üçün müvafiq tədbirlər görülməsi | Vergilərin və digər icbari ödənişlərin elektron qaydada ödənilməsinin təkmilləşdirilməsi üçün müvafiq tədbirlər görülməsi ilə bağlı işlər hesabat ilində də davam etdirilmiş, ötən müddət ərzində dövlət rüsumu üzrə ödənişlər ilə nağdsız qaydada aparılması məqsədilə AR Maliyyə Nazirliyi və AR Mərkəzi Bankın birgə həyata keçirdikləri tədbirlər nəticəsində AR Ədliyyə Nazirliyinin də "Hökumət Ödəniş Portalı"na inteqrasiya olunması istiqamətində işlər görülmüşdür. Bu məqsədlə Ədliyyə Nazirliyi tərəfindən toplanan rüsumların büdcə təsnifatı kodları və rüsum yığan təşkilatlarının xəzinə rekvizitləri barədə müvafiq siyahılar müəyyənləşdirilmiş və həmin Nazirliyin informasiya sisteminin "Hökumət Ödəniş Portalı"na qoşulması ilə bağlı bütün texniki və digər məsələlər müzakirə edilmişdir.<br>Hesabat ilində vergi ödəyicilərinin ƏDV depozit hesabı vasitəsilə ƏDV faizləri üzrə borcunun yarandığı təqdirdə məbləğin sub-uçot hesabından avtomatik büdcəyə silinməsi və vergi ödəyiciləri üçün İnternet Vergi İdarəsində müvafiq imkanın yaradılmış və 21.10.2013-cü il tarixdən istifadəyə verilmişdir. | 2012-2013 |

| № | Tədbirin adı | Vergilər Nazirliyinin icraya məsul strukturları | İcra müddəti |
|---|---|---|---|
| | | AR Prezidentinin «Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında» fərmanından irəli gələn vəzifələr işığında Vergilər Nazirliyi tərəfindən vətəndaş cəmiyyətinə, biznes strukturlarına göstərilən elektron xidmətlərin çeşidinin və həcminin artırılması sahəsində bir sıra zəruri tədbirlər həyata keçirilmiş, Nazirlik ilə Mərkəzi Bankın birgə həyata keçirdikləri tədbirlər nəticəsində vergi və rüsumların elektron ödəniş sistemi yaradılmışdır. Bu elektron xidmətdən istifadə etməklə hesabat ilinin ötən müddəti ərzində dövlət büdcəsinə 754163 sayda ödəniş əsasında 154, 4 milyon manat vəsait daxil olmuşdur.<br>Eyni zamanda POS-terminalların tətbiqinin genişləndirilməsinə nəzarətin təşkili ilə bağlı, o cümlədən POS-terminal ilə əlaqədar bildirişlərin hazırlanması və göndərilməsi ilə bağlı Nazirliyin müvafiq proqram təminatında təkmilləşdirmə işlərinin görülməsi təmin edilmişdir. | |

**Qeyd:** (1.1)* - mötərizədə göstərilmiş bəndlər Milli Fəaliyyət Planındakı bəndlərin nömrələrini göstərir